# Kredo

MÜBARİZƏSİDİR! TARİX İNSANIN Əqidə və İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 35 (1115) 31 avqust 2022-ci il | Qiymәti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# ZABİL PƏRVİZ - 70

**Varlığından alışan, yananı köz göynədər,**
**Sözdə məna biləni, qananı söz göynədər.**
**Sinəndə ocaq yansa, qəlbin oda tutulsa,**
**Yazı ağrıdan gəlsə, hər sözü göz göynədər.**



## ZABİLİN VİCDAN DAMARI

Çingiz Taneke haqqında bir pritça var. Söhbət vicdan damarından gedir.

Təfərrüata varmıram. Zabilin 70 yaşına çəkdiyi bir yazı-portreti oxuyuram: *"70-in ləpədöyənindəyəm... Ürəyim 19 yaşında... Tutmuşam könlümün dodaqlarına. Odla doldurulmuş bir piyaləni!.. Amma gözəl bir şair ömrü yaşadım ha... Səyahətlərim, məhəbbətlərim, qiyamətlərim!.. Zərrə qədər peşiman deyiləm. "Yarı qönçə, yarı gül"dən "Yaşıl simfoniya"ya, "Zabil Pərviz muğamı"na qədər yazmışam. Böyük ustadlarımdan, dəyərli dostlarımdan layiqli qiymətimi almışam... Oğlanlarımdan birinin adı Kürçaylıdır, nəvələrimdən birinin adı Semiramida... Bütün mükafatların, fəxri adların, çələnglərin fövqündəyəm, heç kəsdən heç nə ummuram. Ad günümü çöldə balıq ovunda qeyd edəcəm. Bu qədər... Kanalda suyun səviyyəsi yuxarı olanda bütün balıqlar xoşbəxt olur. Allah bütün açgözlərin gözünü doydursun, xalqımız, cəmiyyətimiz xoşbəxt olsun. Min ailə naz-nemət içində, on milyon xalq ac-yalavac, dilənçi kökündə yaşamasın... İri buynuzlu kapitalistlər unutmasın ki, varlılar da ağlayır və ölür..."*. Bütöv mətn sözün ən müxtəlif çalarlardakı rəngləri ilə dillənir, canlanır. Və mətnin rəng harmoniyasında möhtəşəm bir portret görünür. Şair portreti. Bütün damarları boyu misralara çevrilən sözlərin canda dövr elədiyi bir portret. Bu mənim tanıdığım və çoxlarının da tanıdığı (bəlkə də tanımadığı) Zabil Pərvizdir.

Zabil elə gəncliyindən üsyankar idi. Baxmayaraq ki, poeziyasında o, həm də çox incə, lirikdir.

Neftçalada yaşayır. Vaxtında diplomunu qoltuğuna vurub Bakıya gəlməyi heç ağlına da gətirməyib.

Mən Zabilin bütün şeirlərində, eləcə də publisistikasında onun öz obrazını görürəm. Publisistikasını da yada saldım. O öz obrazını bir dəfə də sübh adasındakı atların taleyinə həsr etdiyi essedə yaradıb.

Elə bil ki, Zabilin təbiətində çölə buraxılmış, böyük çölün yovşanlığında yaşamını özbaşına qurmuş bir köhlən taleyi var; çöldə həm mənəvi, həm də fiziki azadlığının xoşbəxtliyin yaşayan köhlənin taleyi.

Cüssəsizlik içində Gündoğara sığmayan bir ruh daşıyır.

*(Davamı 16-cı səhifədə)*

*(Əvvəli 1-ci səhifədə)*

Bir oxumuşuq. Bir yataqxanada, qonşu otaqlarda qalmışıq.

Yaxşı siqaret çəkməyimiz, təklənəndə doyunca söhbətləşməyimiz vardı. Oturacaq stulunun başında, söykənəcəyin üstündə oturardı. Mən də ona baxıb qalxardım stulun başına.

Elə bil ki, o zamandan Zabilin həyatı yuxarıdan, göy üzündən seyr etmək aclığı canında göyərməyə başlamışdı. O vaxt oxuduğu bir şeirinin təəssüratı məni indi də yandırır:

“Baxır Tuba Şahi,
Fəqət şah kimi yox,
qul kimi baxır”.

## Zabil Pərviz - 70

# ZABİLİN VİCDAN DAMARI

O vaxt 18 yaşlı gənc bu misralarla nə demək istəyib?...

İndi 70 yaşda deyilməli olanı o Zabil hələ uşaq yaşında deyirdi.

...Zabilin adını harada görsəm qəribə bir işıq axarına düşürəm. Mən bilənı Pərviz elə işıq, yəni günəş deməkdir. Bunu mənə 50 il qabaq Zabilin özü demişdi.

Deyəsən, Zabilə də böyük UluTürk demişdi.

O vaxt belə idi; böyüklərin verdiyi adın əyarını zəkaların dediyi sözün dəyərini soruşmazdılar. Tutiya kimi qəbul edərdilər. Eləcə ruhun həbi kimi cana çəkərdilər. Zabilin şair idealı döyüşkəndir, cəngavərdir. Hətta incə lirikasını da döyüş himni kimi oxuyur:

*Od yanar, qayıdar,*
*tüstü qayıtmaz,*
*Əvvəli o doğma isti qayıtmaz.*
*Mənim sadə könlüm*
*bülbül kimidir,*
*Xətrinə dəydilər,*
*küsdü, qayıtmaz.*

Zabilin yandırıcı, yaxıcı poeziyasını da az-çox bilirəm, ruhu ilə də uzaq keçmişdən bağlılığım var. Və ən başlıcası, onun təbiətini də bilirəm. Onun nədənsə küsməyi, inciməyi əzilmək deyil, qürurunu qorumağa ünvanlıdır. Mən dedim axı Zabil döyüşçüdür. Silahı da sıyrılmış qılınc kimi kəsib doğrayan açıq sözü!

Zabil həmişə yazıb. Sözünü od içindən keçirə-keçirə yazıb. Çox az kitabı çap olunub. Bəlkə də biri, ya ikisi. Bircə elə Zabilin bir kitabına görə deyirəm ki, varlığı poeziya ilə yoğrulmuş şairlər üçün nəinki bir kitabı elə bircə şeir də bəsdir əbədi yaşamaq üçün.

Bu illər ərzində çoxları istədi Zabilin vicdan damarını satın alsın. O, “alverçi” olmadı. Zabil vaxtında bilmişdi vicdan damarının çox baha olduğunu, daha doğrusu, satılmalı olmadığını.

Özünü yazmağın ustadıdır Zabil Pərviz. Cansız bir cəsəd daşımır Zabil.

**Ə.R.XƏLƏFLİ**

Kredo.- 2022- ci il.- 31 avqust.- S. 16.